

*Dəmir Çeşməli*

## Şair olum

Dörd yanım dörd içində,
Namərd var mərd içində,
Çürüdüm dərd içində,
Üzüm var, şair olum.

Gecə köçdü səhərdi,
Qəm yemişəm- qəhərdi.
Yetirdiyim bəhərdi,
Dözüm var, şair olum.

Yarpaq donub yellənmir,
Suyum batıb sellənmir.
Könlüm küsüb dillənmir,
Sözüm var, şair olum.

Bağlanıb yolum yolda,
Kəsilib qolum yolda,
Qurbanın olum yolda
İzim var, şair olum.

Unudulan yad olmur,
Yad aşında dad olmur,
Oda düşən od olmur,
Közüm var, şair olum.

Gələn qonaqdı gəlir,
Hələ qınaqdı gəlir,
Lalə yanaqdı gəlir,
Gözüm var, şair olum.

## Qağama məktub

Axtara bilmirəm axtarışdasan,
İzimin yolunu görmürəm, Qağa.
H. deyib hay salıram, neyləməliyəm,
Sözümün yolunu görmürəm, Qağa.

Yaxşının-yaxşısı tapılmayıbdı,
Nəsli-nəcabəti yapılmayıbdı.
Bazarda, dükanda satılmayıbdı,
Düzümün yolunu görmürəm, Qağa.

Allah umuduna qalmışam ki mən,
Payımı payçıdan almışam ki mən?
Oyunu oyuna salmışam ki mən,
Dözümün yolunu görmürəm, Qağa.

Ölmüş arzulara ehsan deyirəm,
Bu günə şükr edib əhsən deyirəm,
Göyün göz yaşına leysan deyirəm,
Gözümün yolunu görmürəm, Qağa.

Ocağım çatılıb çat-ha- çatdadır,
İstisi isitmir qaç-ha- qaçdadır.
Qızaran yanağı quc-ha- qucdadır,
Közümün yolunu görmürəm, Qağa.

Dağa dirənmişəm, dağım dirənib,
Qaraya basılıb ağım dirənib,
Solum yerindəymiş, sağım dirənib,
Üzümün yolunu görmürəm, Qağa.

Nurunu itirib nurdan düşürəm,
Varına əl çatmır, vardan düşürəm,
Yolumu azmışam, ordan düşürəm,
Özümün yolumu görmürəm, Qağa.

## Yer yoxdu

### Firudin Qurbansoya

Sərhəddimiz səddimiz var,
Üçümüz var, yeddimiz var,
Zirvə boyda həddimiz var,
Göydən o yana yer yoxdu.

Səcdə gəlsək səcdə bizik,
Basılmış tapdanmış izik.
Yarı bütöv yarı əzik
Göydən o yana yer yoxdu.

Əlimiz əldədi çatmaz,
Yuxusu gözündə yatmaz.
Suda batar göydə batmaz,
Göydən o yana yer yoxdu.

Dedim:göyə çıxım, çıxdım,
Göydə durub Yerə baxdım.
Süzülüb qəlbinə axdım,
Göydən o yana yer yoxdu.

## Söylə, hardasan

Bələnlər dumana bürünmür burda,
Dərələr boyu çən sürünmür burda,
Mənzərə bənzəri görünmür burda,
Sən olmayan yerdi, söylə hardasan.

Cığırlar səmtini dəyişir təzdən,
Buludlar qaynaşır mavi dənizdən.
Saraq çox, xəbər yox sən xəbərsizdən,
Sən olmayan yerdi, söylə hardasan.

Gözlərim yaşarıb bulaq yaşıyla,
İllərim ölçülüb qaya yaşıyla,
Uzaqdan tanınır qaya daşıyla,
Sən olmayan yerdi, söylə hardasan.

Havası çatışmır suyu yoxdumu,
Kədəri min batman, qəmi çoxdumu?
Küləyi qılıncdı yeli oxdumu,
Sən olmayan yerdi, söylə hardasan.

Günün-güzaranın kəsib aranı,
De, nə tez unutdun dağı-aranı?
Qəmin təzələyib köhnə yaranı,
Sən olmayan yerdi, söylə hardasan.